Səh. 2 Burun – Azər Musaoğlu
Səh. 5 Genetik kod – Esmira Ələkbərli
Səh. 5 Söz azadlığı – Afaq Azər
Səh. 6 Dözümlülüyün, iradənin və qələbəyə aparan yolun hekayəsi – Çiyalə Osmanova
Səh. 3 Kimə bənzəmək istəyirik? – Hacı Bəkiroğlu
Səh. 4 TƏCRÜBƏÇİ MÜƏLLİMLƏR 2025-2026-CI TƏDRİS İLİNİN SONUNA QƏDƏR STATUSLARINI SAXLAYACAQLAR
Səh. 7 Belə belə işlər – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2026-Cİ İL
№ 02 (242)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QRANTLAR HAQQINDA QANUN DAHA DA SƏRTLƏŞDİRİLƏ BİLƏR

Gürcüstanda qrantlar haqqında qanuna və Cinayət Məcəlləsinə sərt dəyişikliklər təklif olunub.

“Gürcü Arzusu” parlament fraksiyasının rəhbəri İrakli Kirtsxaliya ölkədə iğtişaş və zorakılığın xaricdən maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə qrantlar haqqında qanuna və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklər paketi təqdim edib.

Kirtsxaliyanın sözlərinə görə, son illərdə hökuməti devirməyə yönəlmiş cəhdlərdə xaricdən maliyyələşdirilən QHT-lər və radikal müxalifət fəal iştirak edib və bu səbəbdən mövcud mexanizmlərin daha da sərtləşdirilməsinə ehtiyac var.

Təklif olunan dəyişikliklərə əsasən, Gürcüstanın daxili və ya xarici siyasətinə təsir məqsədi daşıyan bütün maliyyə vəsaitləri, o cümlədən nağd, natura, texniki yardım, xidmət, bilik və ekspert dəstəyi qrant hesab olunacaq və yalnız hökumətin əvvəlcədən razılığı ilə qəbul edilə biləcək. Xaricdə qeydiyyatdan keçmiş, lakin əsas fəaliyyəti Gürcüstanla bağlı olan təşkilatlar da qrant almaq üçün hökumətdən icazə almalı olacaqlar.

Qanun layihəsi qeyri-rezident hüquqi şəxslərin filialları üçün də məhdudiyyətlər nəzərdə tutur. İcazəsiz qrant alan filiallara



qanunsuz məbləğin ikiqatı həcmində cərimə tətbiq ediləcək.

Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, qrant qanunvericiliyinin pozulması 6 ilədək azadlıqdan məhrumetmə ilə nəticələnə bilər. Siyasi məqsədlərlə çirkli pulların yuyulması isə 9 ildən 12 ilədək həbs cəzası ilə cəzalandırılacaq. Xarici maliyyə qəbul edən siyasi partiya rəhbərləri və xarici lobbiçilik fəaliyyəti ilə məşğul olan şəxslər də cinayət məsuliyyəti daşıyacaq.

Bundan əlavə, illik gəlirinin 20 faizindən çoxunu xarici mənbələrdən alan təşkilatlarda çalışan şəxslərin 8 il müddətinə siyasi partiya üzvü olması qadağan edilir. Siyasi partiyaların maliyyə fəaliyyətinə nəzarət isə Dövlət Audit İdarəsinə həvalə olunacaq.

Qanun layihəsi sahibkarlıq subyektlərinin əsas fəaliyyətindən kənar ictimai-siyasi fəaliyyətini də məhdudlaşdırır. Bu qaydanın pozulması halında cərimə nəzərdə tutulur.

## GÜRCÜSTAN MÜSƏLMANLARI ÜÇÜN 4 MİLYON 150 MİN LARİ AYRILIB

Gürcüstan hökuməti 2026-cı ildə ölkənin dini icmaları üçün dövlət büdcəsindən 6 milyon 500 min lari vəsait ayırıb. Bu barədə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, bu vəsaitin 4 milyon 150 min larisi Gürcüstan İslam İcması üçün nəzərdə tutulub.

Ümumi vəsaitin 1 milyon 100 min larisi Erməni apostol Xristian İcmasına, 700 min larisi Roma-Katolik Xristian İcmasına, 550 min larisi Gürcüstan Yəhudi İcmasına veriləcək.

Qeyd olunub ki, bu qərar dini birliklərlə məsləhətləşmələr və faktiki hallar (icma üzvlərinin sayı, din xadimlərinin sayı və ibadətxana və tikililərinin sayı) öyrənildikdən sonra qəbul edilib.

“Vəsaitin ayrılmasından məqsəd sovet totalitar rejimi dövründə dini birliklərə vurulmuş ziyanın qismən ödənilməsini təmin etməkdir”, – deyə məlumatda vurğulanır.

## YENİ DÖVLƏT QURUMU YARADILIR

Gürcüstan hökumətinin qərarı ilə dövlət satınalmaları sahəsində yeni mərkəzi qurum fəaliyyətə başlayacaq. Bu barədə hökumətin Səmərəlilik Departamentinin 2025-ci il üzrə fəaliyyət hesabatında məlumat verilib.




Məlumata görə, Mərkəzi Satınalma Orqanı müəyyən mal və xidmətlərin dövlət tərəfindən satın alınmasını müstəqil şəkildə həyata keçirəcək. Qurumun yaradılmasında əsas məqsəd dövlət vəsaitlərinin şəffaf, səmərəli və rasional xərclənməsini, həmçinin dövlət qurumlarının ehtiyaclarına vaxtında və effektiv cavab verilməsini təmin etməkdir.

Hesabatda qeyd olunur ki, yeni mandat çərçivəsində Mərkəzi Satınalma Orqanı mərkəzləşdirilmiş satınalmalar üzrə bağlanmış müqavilələrin monitorinqini də həyata keçirəcək. Qurumun illik satınalma həcminin təxminən 2 milyard lari təşkil edəcəyi gözlənilir.

Mərkəzi Satınalma Orqanının yaradılması Avropa İttifaqı ilə Assosiasiya Sazişi çərçivəsində Gürcüstanın üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq qəbul edilmiş “Dövlət Satınalmaları haqqında” Qanunda da nəzərdə tutulub.



# BURUN

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Burun təyinatı üzrə istifadə olunmayanda, yəni burnu sifətin ortasında yalnız iy bilmək və nəfəs almaq üçün gəzdirməyəndə başın Everest zirvəsi olan bu xımırçəkli elastik orqan əsl soyuq silaha çevrilir: burun dava salır, ailə dağıdır, qonşunu qonşuyla, qohumu qohumla qanlı düşmən edir; qlobal baxanda, hətta ölkələri də bir-birinə qırdırır – etirazlar yaradır, həbslər edir, qətllər törədir, çevrilişlər həyata keçirir və sair.

İnsan burnu ilə ilk növbədə nəfəs almalı, iy, qoxu bilməlidir. Burnu bu iki əsas təyinat üzrə istifadə edəndə insanın bədənində də, ətrafında da harmoniya yaranır. Bu gün dünyada bir çox insanlar bu harmoniyanı yaratmaq üçün gündəlik olaraq yoqa və müxtəlif nəfəsalma məşqləri edirlər, təmiz havada piyada gəzirlər, burunları ilə gözəl qoxulardan, ətirlərdən zövq almağa çalışırlar və sair.

Biz isə burundan ölçü vahidindən tutmuş sosial status göstərən şkalaya kimi istifadə edirik. Məsələn, işi bacara bilib-bilməyəcəyimizi müəyyən etmək üçün, "ölçmək" üçün burnumuzdan istifadə edirik – burnumuz girməyən yerə başımızı soxmuruq. Yaxud da, heç kəslə hesablaşmayan, dikbaş, təkəbbürlü, lovğa adamı burnunun göylə getməsindən, burnu dik gəzməsindən tanıyırıq.

İnsan bədənində burun yeganə əzadır ki, onu örtmək, qapamaq, gizlətmək mümkün deyil. Hətta əllərə əlcək geyinmək olur, burnu isə gizlətmək olmur. Bəlkə də elə buna görə burnumuzu hara gəldi soxuruq. Araşdırsaq bəlkə də qohum-əqrəbanın, qonum-qonşunun, tanış-bilişin işinə-gücünə, aldığı maaşa, geyiminə-kecиminə, inancına, ailə məsələsinə, qapı-bacasına, mətbəxinə, yataq otağına ən çox burnunu soxan da elə biz olarıq. Buna görə də burnumuz başımıza bəladır. Dəfələrlə burnumuz ovulsa da burnuna barıt iyi dəyməyənimizdən tutmuş burnu yerə dəyənimizə kimi burnu uzunluq eləsək də burnumuzdan uzağı görə bilmirik. Bir burnumuzdan vuranımız da yoxdur ki, ay həzərat, yetər artıq, öz işinizlə-gücünüzlə məşğul olun, onun-bunun işinə-gücünə, aldığı maaşa, geyiminə-kecиminə, inancına, ailə məsələsinə, qapı-bacasına, mətbəxinə, yataq otağına yekə, uzun burnunuzu soxmayın, dünyada bundan əxlaqsız zad yoxdur, "icazə" verin hərə öz həyatını yaşasın, analarından əmdiyi südü burunlarından gətirməyin, yeyib-içdiklərini burunlarından tökməyin.

Biz burnumuzu başqalarının işinə soxmasaq və ya burnunu başqalarının işinə soxanların burunlarına duzlu su qoysaq bu uzunburunlar da burunlarını bayıra çıxara bilməyəcəklər, qanqaraçılıq da olmayacaq, bir adamın da burnu qanamayacaq. Əgər istəyiriksə bunun qarşısı alınsın ilk növbədə öz burnumuzdan başlamalıyıq, burnumuzu başqalarının işinə-gücünə, aldığı maaşa, geyiminə-kecиminə, inancına, ailə məsələsinə, qapı-bacasına, mətbəxinə, yataq otağına soxmamalıyıq. İstər qohum, istər yad – kim olur olsun, burnunu sallasa da, bunu yanımızda edənlərin sözlərini-gaplarını ağızlarında-burunlarında qoymalıyıq, bu cür dedi-qodulara qulaq şəriki olmamalıyıq. Köhnə hava burnunda qalanların yolları ilə getməməliyik, onlara oxşamamalıyıq, fırt eləyib onların burunlarından düşməməliyik. Hər şeyə göz yumub, susub burnumuzun suyunu axıtmamalıyıq. Mazaratı əvvəlcə öz burnumuzun altında axtarmalıyıq, tapmalıyıq, burnuna vurmalıyıq, belədə burnumuz gödək, dilimiz uzun olacaq, burnumuzu onun-bunun işinə soxa bilməyəcəyik.

Burun demişkən, Qoqolun "Burun" adlı məşhur povesti var. Əsərin baş qəhrəmanı bir səhər yuxudan oyanıb görür ki, burnu üzündə yoxdur. Burnunun boş yerini dəsmalla tutub şəhəri ələk-vələk edərək burnunu axtarır, tapa bilmir. Nəhayət polis burnu tapıb sahibinə qaytarır. Povestin bu yazıyla əlaqəsi olmasa da, ona görə xatırladım ki, hər dəfə bu əsəri oxuyanda və ya bu əsərin adını eşidəndə, haqqında danışılanda başqasının işinə dürtülən burunlarımız yadıma düşür və ürəyimdə arzulayıram: kaş qohum-əqrəbanın, qonum-qonşunun, tanış-bilişin işinə-gücünə, aldığı maaşa, geyiminə-kecиminə, inancına, ailə məsələsinə, qapı-bacasına, mətbəxinə, yataq otağına girən milli burunlarımız da bir səhər beləcə yoxa çıxalar...

# PİYADA ÖLÜMLƏRİNDƏ SİSTEM VƏ CƏMİYYƏTİN MƏSULİYYƏTİ



Qardabanidə 18 yaşlı gəncin yol-nəqliyyat hadisəsi nəticəsində həyatını itirməsi təkcə bir ailənin faciəsi deyil, bu hadisə cəmiyyətin təhlükəsizliyə münasibətini, dövlət nəzarətinin zəifliyini və insan həyatına verilən dəyəri açıq şəkildə göstərdi. Yenə bir evin işığı söndü, yenə bir ailənin gələcək ümidləri yarımçıq qaldı. Ən ağrılı tərəf odur ki, bu kimi hadisələr artıq bizi təəccübləndirmir və sanki faciələr gündəlik həyatın bir parçasına çevrilib.

Şəhər və qəsəbə yollarında saysız-hesabsız yol nişanları mövcuddur. Sürət həddi göstərilir, piyada keçidləri çəkilir. Lakin əgər sürücülər onlara əməl etmirsə, nəzarət zəifdirsə və cəza mexanizmi effektiv deyilsə bu nişanların mövcudluğu sadəcə görüntü yaratmaqdan başqa heç nə ifadə etmir. Qayda yalnız kağız üzərində qalırsa artıq o, qayda deyil, sadəcə yazılı bir sənəddir.

Gündüz saatlarında bəzi sürücülərin davranışı açıq-aşkar məsuliyyətsizlik nümayiş etdirir. Sanki maşın yarışlarını izləyirik. Sürət yığmaq, avtomobil səsi ilə diqqət çəkmək və ya kiməsə özünü göstərmək cəmiyyətimizdə təhlükəli vərdişə çevrilib. Bu davranışlar yalnız qayda pozuntusu deyil, birbaşa insan həyatına təhlükədir. Təəssüf ki, çox vaxt bu halların əksəriyyəti vaxtında cəzalandırılmır. Polis nəzarəti yalnız hadisə baş verdikdən sonra aktivləşir. Sanki sistem yalnız belə faciədən sonra işləyir. Əvvəlcə ölümlə nəticələnən hadisə baş verməlidir ki, polislər öz işlərini görsünlər. Əslində, hüquq-mühafizə orqanlarının funksiyası cəza vermək yox, riskin qarşısını almaqdır. Lakin sürücülərdə artıq cəzasızlıq psixologiyası formalaşıb. Onlar sürətli olsalar belə cəzalandırılmayacaqlarını düşünürlər. Necə bir vəziyyətə gəlib çıxmışıq ki, bəziləri vəzifədə oturanlar tanışdır, ona görə istədiyini edir, bəziləri puluna, daydayısına güvənir. İnsan həyatının bir önəmi qalmayıb.

Vəzifədə olan şəxslər və dövlət qurumları çox vaxt yalnız kağız üzərində iş görürlər. Yol təhlükəsizliyi planları hazırlanır, iclaslar keçirilir, lakin küçələrdə real nəzarət, sürət həddinə əməl olunması və piyada təhlükəsizliyi üçün effektiv tədbirlər görülmür. Sistem sənəd üzərində işləyir, amma insan həyatını qorumaq reallıqda həyata keçirilmir.

Cəmiyyətin rolu da mühümdür. Hadisədən sonra sosial şəbəkələrdə valideynlər və sürücülər günahlandırılır. Lakin günah yalnız bir şəxsdə deyil. Hər dəfə qayda pozanlara göz yummağımız, nəzarət etməməyimiz bizi də bu faciələrin bir hissəsinə çevirir. Media qurumlarında bunun kimi məsuliyyət ayrıca vurğulanmalıdır. Çox vaxt xəbərlər yalnız reytinq üçün hazırlanır. Qanlı başlıqlar və emosional ifadələr oxucunu cəlb etmək məqsədi daşıyır. Lakin "filankəs sürət həddini aşdığı üçün cərimələndi" kimi xəbərlər nadir hallarda paylaşılır. Belə xəbərlər sensasiya yaratmasa da cəmiyyətdə məsuliyyət hissi formalaşdırmalı idi. Media faciədən sonra ağlamağı yox, əvvəlcədən xəbərdarlıq etməyi öyrənməlidir. Ən təhlükəli hal isə insanların bu faciələrə alışmasıdır. Sosial şəbəkələrdə paylaşım edilir, gündəmdə olur, sonra mövzu gündəmdən çıxır. Halbuki həmin ailə üçün bu faciə ömürlük iz buraxır. O evdə bayramlar əvvəlki kimi olmayacaq, süfrələr səssiz qalacaq, gülüşlər xatirəyə çevriləcək...

Yol nişanlarına əməl etmək kağız üzərində qalırsa, polis nəzarəti formal xarakter daşıyırsa və cəmiyyət susmağa davam edirsə heç nə yaxşılığa doğru dəyişməyəcək. Dəyişiklik yalnız hər kəs üzərinə düşəni yerinə yetirdiyi zaman mümkündür. Sadəcə faciə baş verdikdən sonra qeybət edib, paylaşım edib "Başın sağ olsun, Qardabani!" demək bizim borcumuz deyil. Bizim həqiqi borcumuz insan həyatını qorumaq, real tədbirlər görmək, qaydalara riayət etmək və məsuliyyətimizi dərk etməkdir.

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# ŞEİRİ OYNAMAQ OLMAZMI?



Müəllifi Məmməd Həsənli olan "Dəlisən, dəli" şeirini teatral formatda səsləndirdiyim üçün bəziləri məni tənqid etdi. Əslində, tənqid də demək olmaz, çünki dodaqlarının arasından paxıllıq atəşi tökülürdü. Bəyənməyə bilərsən, hər kəsin öz işi, öz zövqü var. Mən də çox adamı bəyənmirəm, amma bu o demək deyil ki, bəyənmədiyim adam iş görmür. Onun da öz izləyicisi, öz auditoriyası var. Guya şeir belə oxunmazmış, guya sözün bədən dilinə, hərəkətə çevrilməsi onun mahiyyətini pozurmuş. Bu yanaşmanı doğru hesab eləmirəm.

Şeir təkcə oxunan mətn deyil. Şeir nəfəsdir, ritmdir, daxili qışqırıqdır, bəzən də susaraq deyilən fəryaddır. Bu sözləri bir çox qələm adamlarından eşitmişəm və haqlıdırlar. Tarix boyu şeir səsləndirilib, bədənlə, musiqi ilə bir arada olub. Aşıqlar sazla oxuyub, dərvişlər şeiri zikr kimi səsləndirib, böyük şairlərin misraları teatr səhnələrində monoloqa çevrilib. Məsələn, onlardan biri, rus şairi Vladimir Mayakovski şeirlərini səhnədə, bəzən teatral jestlərlə təqdim edirdi. Tamaşaçılar onun şeirini eşitməklə yanaşı, hiss edirdi, yaşayırdı. Deməli, sözün səhnəyə çıxması onun təbiətinə zidd deyil, əksinə, kökünə qayıtmasıdır.

"Dəlisən, dəli" şeiri içində üsyan, ağrı, qırılma daşıyan bir mətndir. Belə bir şeiri sakit oxumaq onun ruhunu yarımçıq göstərməkdir. Mən onu teatral formatda təqdim etməklə şeiri oynamadım, onun içindəki gərginliyi, psixoloji partlayışı göstərməyə çalışdım. Teatr yalan danışmaq sənəti deyil. Teatr daxildə olanı göstərmə sənətidir. Şeir də elədir, bu ikisi birləşəndə söz sadəcə eşidilmir, həm də yaşanır. Tamaşaçı şeiri oxumadan da hiss edir, anlayır. Bəziləri "şeir belə olmalıdır", "teatr elə olmalıdır" deyə sənəti çərçivədə saxlamaq istəyirlər. Amma sənət çərçivəni sevmir. Sənət nəfəs kimi azad olanda yaşayır. Əgər bir şeir səhnədə insanın içini silkələyirsə, deməli o şeir orada yerini tapıb. "Dəlisən, dəli" şeirini səhnədə səsləndirəndə onun gizli qışqırığını açdım. Və inanıram ki, söz səhnədə yaşayırsa və ya səhnədə göstərilirsə daha canlı, ölümsüz görünür.

Bəli, Rəsul Rza, Məmməd Araz və digər Azərbaycan şairlərinin şeirləri də aktyorlar tərəfindən teatr səhnəsində və monoloq formatında səsləndirilib. Şeir səhnədə olmalıdır – bunu mən demirəm, şeirin özü deyir. Bundan bir neçə il əvvəl Xəlil Rza Ulutürkün "Azadlıq" şeirini "BEEZ" Uşaq Teatrının aktyorları ilə səsləndirmişdik, 7 yaşındakı uşaqların ilk işi idi və pis də alınmamışdı. Mən aktyoram və öz baxış bucağım var, necə görürəmsə, elə də səhnələşdirirəm.

Ümumiyyətlə, bu gün bir çox şairlərin şeirlərinə baxsaq görərik ki səsləndirənlərin əksəriyyəti aktyorlardır və doğrudan da şeirə ruh verirlər. İnanın, bəzən elə gözəl səsləndirmələrə qulaq asıram, amma şeiri apar tulla (Bunun əksini də görürəm, şeiri qiraətçi pis günə qoyur). Deməli, şeirə ruh verən qiraətçidir. Təbbi ki, hər şeir səsləndirənə də qiraətçi demək olmaz.

Bu gün könül istərdi ki, daha çox qiraətçilərimiz olsun, gənclərimizdə maraq, demək olar ki, çox azdır, hətta deyərdim qadın qiraətçilərimiz yoxdur. Təbii ki, söhbət Gürcüstanda yaşayan azərbaycanlılardan gedir. Ola bilər ki, var, amma özlərini göstərmirlər. Olsa, pis olmaz. Bəli, reallıq budur, bu gün şeiri tamaşaçıya sevdirən qiraətçilərdir, aktyorlardır, onu səhnələşdirən rejissorlardır. Şeir səhnədə olmaz deyənlər, bu qədər pesimist olmayın.

**Binəli İslamoğlu**

*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# KİMƏ BƏNZƏMƏK İSTƏYİRİK?



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Biz dərin köklərə bağlı tarixi keçmişi, özünəməxsus milli-mənəvi dəyərləri, mədəniyyəti olan şanlı bir millət – türk, Azərbaycan millətiyik. Min illərdən bəridir ki, adət-ənənəmizi, mədəniyyətimizi, dəyərlərimizi qoruyaraq bu günlərə gəlib çıxmışıq. Tarix boyu çox sayda müharibələr, dağıntılar, tufanlar, qasırğalar görsək də öz kimliyimizi qorumaqdan yorulmamışıq, usanmamışıq. Ancaq gəl gör ki, bu gün biz kimliyimizdən uzaq düşməyə doğru yol almışıq. Elə bu əsnada bir cəmiyyət olaraq özümüzdən soruşmalı olduğumuz bir sual meydana gəlir: Biz kimə bənzəmək istəyirik? Düşünürəm ki, bu sualın cavabı gələcəyimizi, övladlarımızın kimliyini və milli-mənəvi dəyərlərimizin taleyini müəyyən edəcək.

Artıq bir neçə ildir ki, açıq-aydın müşahidə edilə bilən bir həqiqətlə üz-üzəyik: biz tədricən özümüz olmaqdan uzaqlaşırıq. Adət-ənənələrimiz, ailə dəyərlərimiz, əxlaq və ədəb anlayışımız yad təsirlərin kölgəsində qalır. Təəssüflər olsun ki, bu dəyişiklik çox vaxt "müasirlik" adı altında bizə təqdim olunur. Müasir olmaq kökündən, kimliyindən uzaqlaşmaq deyil, əksinə, bu kök üzərində qol-budaq ataraq yüksəlməkdir. Ancaq biz bəzən yüksəlmək adı ilə köklərimizi baltalayırıq. Düşünürük ki, keçmişdən utanmaq inkişafdır. Nənə-babalarımızın bizə abır-həya deyə öyrətdikləri örtünməyi gerilik bilərək bədənimizin çox hissəsini açaraq gəzməyi müasirlik zənn edirik. Halbuki keçmişini tanımayan gələcəyini də tanıya bilməz.

Bu uzaqlaşmanın ən bariz nümunələrindən biri uşaqlarımıza qoyduğumuz adlardır. Min illərin süzgəcindən keçərək gəlmiş, əcdadlarımızın qürurla daşıdıqları adlarımız varkən, bu gün bir çox valideyn mənasını belə bilmədiyi, sadəcə xarici seriallarda eşitdiyi və ya "trend" olduğu üçün qəribə, ruhsuz adlara üstünlük verir. Halbuki ad sadəcə səslənmə deyil, kimlikdir, taleyə yazılan ilk cümlədir.

Digər bir təhlükəli meyil isə əxlaqdan, ədəbdən və ailə dəyərlərindən uzaq olan, elə yayımlanma məqsədi də insanları lazımsız şeylərə meyil etdirmək olan seriallara kor-koranə bağlanmaqdır. Bu ekran məhsulları təkcə vaxtımızı almır, düşüncəmizi, davranışımızı, hətta arzularımızı formalaşdırır. Gənclər oradakı süni həyatlara, qeyri-real münasibətlərə, məsuliyyətsiz "qəhrəmanlara" bənzəməyə çalışırlar. Nəticədə zəhmət, səbir, ailə, hörmət kimi anlayışlar köhnəlmiş kimi qəbul olunur. Bundan əlavə, bəzi gənclər bu seriallardakı həyatları real həyatda uyğulamağa çalışırlar, bunun nəticəsi isə çox ağır olur. Çünki onlar da zəhmət çəkmədən varlanmağa çalışırlar, başqalarının namusuna göz qoyurlar. Və bunun nəticəsində də ailələr dağılır, övladlar psixoloji travmalar alır və sair və ilaxır. Ən acısı isə budur ki, bütün bunlar evimizin içində, uşaqlarımızın gözü qarşısında baş verir. Biz bəzən onların kimə baxdığını, kimi örnək aldığını soruşmuruq. Halbuki uşaqlar danışdığımızdan çox yaşadığımıza baxırlar.

Bu yazıda keçmişə qapanıb yenilikdən uzaq olaraq müasirliyə düşmən olmağa çağırmıram. Yazının əvvəlində verilən sadə suala cavab tapmağa çalışıram.

Bu arada gəlin bir daha özümüzə sual verək: biz niyə yenilənərkən, müasir olmağı düşünərkən özümüzdən, kökümüzdən uzaqlaşmağa çalışırıq? Başqasına bənzəməyə çalışarkən kimliyimizi niyə qurban veririk?

Əgər bu gün öz dəyərlərimizi qorumasaq sabah övladlarımıza ötürəcək bir mirasımız qalmayacaq. Bəlkə də artıq düşünməyin vaxtıdır: biz kimə bənzəmək istəyirik – başqalarınamı, yoxsa öz əcdadımızamı?

# MƏKTƏBLƏRİN MALİYYƏSİ ARTIRILIB – BİR ŞAGİRD ÜÇÜN NEÇƏ LARİ NƏZƏRDƏ TUTULUB?

Gürcüstan hökumətinin qərarı ilə məktəbdə bir şagird üçün vauçer maliyyəsi ötən illə müqayisədə təxminən 30-60 lari artıb.

***Daha dəqiq desək, ictimai məktəblərdə 1-dən 8-ci sinfə qədər bir şagird üçün nəzərdə tutulub:***

ა.ა) Şagirdlərinin sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 456 lari;

ა.ა1) Şagird sayı 170-dən 205-ə qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 726 lari;

ა.ბ) Şagird sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 426 lari;

ა.ბ1) Şagird sayı 206-dan 299-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 675 lari;

ა.გ) Şagird sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 330 lari;

ა.გ1) Şagird sayı 300-dən 530-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 495 lari;

ა.დ) Şagird sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 285 lari;

ა.დ1) Şagird sayı 531-dən 735-ə qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 450 lari;

ა.ე) Şagird sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 255 lari;

ა.ე1) Şagird sayı 736-dan 1269-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 381 lari;

ა.ვ) Şagird sayı 1269-dan çox olan ictimai məktəblər üçün – 231 lari;

ა.ვ1) Şagird sayı 1269-dan çox olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 330 lari.

***ბ) 9-cu sinifdən 12-ci sinfə qədər:***

ბ.ა) Şagird sayı 170-dən 205-ə qədər olan ictimai məktəblər üçün – 486 lari;

ბ.ა1) Şagird sayı 170-dən 205-ə qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 786 lari;

ბ.ბ) Şagird sayı 206-dan 299-a qədər olan ictimai məktəblər üçün – 441 lari;

ბ.ბ1) Şagird sayı 206-dan 299-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 720 lari;

ბ.გ) Şagird sayı 300-dən 530-a qədər olan ictimai məktəblər üçün – 360 lari;

ბ.გ1) Şagird sayı 300-dən 530-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 555 lari;

ბ.დ) Şagird sayı 531-dən 735-ə qədər olan ictimai məktəblər üçün – 315 lari;

ბ.დ1) Şagird sayı 531-dən 735-ə qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 510 lari;

ბ.ე) Şagird sayı 736-dan 1269-a qədər olan ictimai məktəblər üçün – 285 lari;

ბ.ე1) Şagird sayı 736-dan 1269-a qədər olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 441 lari;

ბ.ვ) Şagird sayı 1269-dan çox olan ictimai məktəblər üçün – 261 lari;

ბ.ვ1) Şagird sayı 1269-dan çox olan, dağlıq məntəqələrdə yerləşən ictimai məktəblər üçün – 390 lari.

# TƏCRÜBƏÇİ MÜƏLLİMLƏR 2025-2026-CI TƏDRİS İLİNİN SONUNA QƏDƏR STATUSLARINI SAXLAYACAQLAR




Müəllimlərin karyera inkişafının yeni sxeminə əsasən, təcrübəçi (praktikos) statusu artıq yoxdur; baş, aparıcı, mentor müəllim statusları var. Ancaq faktdır ki, qeyri-gürcüdilli məktəblərdə təcrübəçi statusu olan müəllimlər illərdir işləyirlər və 2025-ci ildə də öz statuslarını artırmaq üçün imtahan vermək imkanları var idi.

Kompetensiyasını uğurla təsdiq edənlərə, təbii ki, baş müəllim statusu veriləcək. Amma əgər təcrübəçi müəllim keçidi aşmaq üçün vacib olan balı toplaya bilməzsə, nə olacaq? Məktəbin bu cür müəllimlərlə müqaviləni dayandırmaq hüququ varmı?

Qeyd olunan məsələ ilə bağlı karyera inkişafı sxemində bildirilir ki, "qeyri-gürcüdilli məktəblərin/sektorların təcrübəçi müəllimləri 2025-2026-cı tədris ilinin sonuna qədər təcrübəçi müəllim statusunu saxlayacaqlar".

Təcrübəçi statuslu müəllimlər peşə bacarıqları ilə bağlı uzunmüddətli təlim kursu keçə bilərlər ki, nəticədə onlara baş müəllim statusu veriləcək.

"2025-2026-cı tədris ilinin sonuna qədər qeyri-gürcüdilli məktəblərin/sektorların təcrübəçi müəllimləri Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin və ya Zurab Jvaniya adına Dövlət İdarəçilik Məktəbinin, yaxud ali təhsil müəssisəsi tərəfindən təşkil edilmiş gürcü dili kursunu keçərsə (və ya keçibsə), ya da gürcü dilini bildiyini təsdiq edən sənəd təqdim edərsə, fənn imtahanından alınmış nəticələri nəzərə almaqla onlara 1, 4, 7 və 10 kredit bal, həmçinin peşə bacarıqları ilə bağlı uzunmüddətli təlim kursları keçmək hüququ veriləcək. Kursu uğurla başa vurduğu halda baş müəllim statusu alacaq.

Eyni zamanda rusdilli məktəblərdə/sektorlarda rus dilini, eləcə də ana dili və ədəbiyyatı tədris edən, rus dili xarici dil kimi imtahanını qismən və ya tam vermiş müəllimlərə baş müəllim statusu veriləcək.

Bundan əlavə, 2022-ci ilin 1 yanvarına qədər fənn və peşə kompetensiyasını minimum 1 kreditlə təsdiq etmiş müəllimlərə baş müəllim statusu veriləcək. 2022-ci ilin 1 yanvarına qədər fənn kompetensiyasını 10 kreditlə təsdiq etmiş müəllimlərə də baş müəllim statusu veriləcək.

2026-cı ilin 1 yanvarına qədər qeyri-gürcüdilli ümumtəhsil müəssisələrində/sektorlarda işləyən, 2026-cı ilin 1 yanvarına qədər fənn kompetensiyasını 10 kreditlə təsdiq etmiş pedaqoqlara baş müəllim statusu veriləcək.

***İmtahanda qazanılmış nəticələr aşağıdakı kimi hesablanır:***

| **Fənn imtahanı testinin maksimal balı faizlə** | **Kredit bal** |
|---|---|
| 60-dan yuxarı | 10 |
| 50-dən 60-a qədər | 7 |
| 40-dan 50-yə qədər | 4 |
| 30-dan 40-a qədər | 1 |

# TƏHSİL NAZİRİNİN ƏMƏKHAQQI 13600 LARİ, MÜAVİNLƏRİNİN İSƏ 12000-11600 LARİ OLUB

Hökumətin sərəncamı ilə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinə qurumun ştat siyahısını, əmkhaqlarını və əməkhaqqı fondunu müəyyən etmək üçün razılıq verilib. Baş nazir İrakli Kobaxidzenin imzaladığı sənəd 2026-cı ilin 1 yanvarından qüvvədədir.

Sənədə əsasən, təhsil nazirinin aylıq əməkhaqqı 13600 lari, birinci müavininin əməkhaqqı 12000 lari olub. Müavinlərin əməkhaqqı isə 11600 lari müəyyən edilib. Qeyd edək ki, təhsil nazirinin üç müavini var və onlar ümumilikdə ayda 34800 lari alacaqlar.

Həmçinin nazir köməkçisi 4480, birini müavinin köməkçisi 4480, müavinlərin köməkçiləri isə 4000 lari əməkhaqqı alacaqlar.

Qurumun digəl işçilərinə gəldikdə isə, ilkin struktur vahidi rəhbərinin əməkhaqqı 9600 lari, onun müavininin əməkhaqqı isə 7200 lari olacaq. İkinci struktur vahidi rəhbəri ayda 5600 lari əməkhaqqı alacaq.

Sənədə görə, birinci kateqoriya baş mütəxəssisin əməkhaqqı 3680 lari, ikinci kateqoriya baş mütəxəssisin əməkhaqqı 3200 lari, üçüncü kateqoriya baş mütəxəssisin əməkhaqqı 2880 lari, birinci kateqoriya köməkçi mütəxəssisin əməkhaqqı isə 2400 lari müəyyən edilib.

Ümumilikdə, hökumətin sərəncamı Təhsil Nazirliyində işləyən 180 nəfəri əhatə edir. Onların aylıq əməkhaqqı 10 milyon 500 min lari müəyyən edilib.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* ***Aynurə Əliyeva***

# GENETİK KOD



Bir-birindən barmaq izi ilə fərqlənən insanların anatomiya və fiziologiyasında heç bir fərq olmur. Bir bioloq, fizioloq kimi öz müşahidələrim nəticəsində müəyyən etdim ki, insanların yaşadığı mühit onun fizioloji və psixoloji quruluşuna təsir edir. Fikrimi əsaslandırmaq üçün bir az gendən başlayım.

Müşahidə və mütaliə ilə müəyyənləşdirdim ki, insanların genində bir genetik kod var, hansı ki, onun kimliyini müəyyənləşdirir. Məsələn, Azərbaycan mühitində, gürcü mühitində, rus, Avropa mühitində insanların genetik kodu bir-birindən fərqlənir. Bu kod isə bizim fiziologiyamıza, həyat tərzimizə, düşüncəmizə belə təsir edir. Bəli, siz bəlkə təfəkkür deyə düşünəcəksiniz. Əgər mən desəm ki, bu təfəkkür bizim fiziologiyamıza da təsir eləyir, inanarsınızmı?

Bax, məsələn, heç bir Avropa ölkəsində "çöp" nəfəs borusunda qalmır. Dünyanın heç bir ölkəsində göbək düşmür. Biz 40 dərəcə istidə 80 dərəcəli çay içərək yanğımızı kəsirik. Bizə soyuq dəyəndə, iltihaba məruz qalanda mürəbbəli çay içirik, banka qoyub sağalırıq. Müasir təbabət heç vaxt bu barədə heç nə danışmır, hətta qəbul etmir. Ancaq bu, bizim fiziologiyamıza təsir edir. Hətta belə bir müşahidəm də olub ki, hər bir insanın yaşadığı ərazisindəki faydalı bitkilər – meyvə, tərəvəz onun sağlığına daha müsbət təsir edir, nəinki "əcnəbi" – xaricdən gətrilən meyvə, tərəvəz... Düzdür, bəziləri bu fikirləri utopiya qəbul edirlər, yəni xəyal nəzəriyyəsi kimi.

Bəzi elmi nəzəriyyələrdə belə hesab edirlər ki, hər bir daşın, hüceyrənin, bitkinin öz aurası, öz enerjisi var. Etiraf edirəm ki, bu nəzəriyyələri mən qəbul edirəm, inanıram. İnanıram ona görə ki, o bizim genetik koduna daxil olur və həmin kod bizim təsəvvürümüzü dəyişir, şüuraltı olaraq sağlığımıza təsir edir. Tutalım ki, biz savadlılar qəbul edirik ki, fala baxdırmaq cahillikdir, acaq bizim bir atalar sözümüz də var: "Fala inanma, faldan da qalma". Biz üzdə savadlı bir insan kimi bunu qəbul etmirik. Amma içimizdə bir işıq orada nəsə axtarır və ona inanır. Bəli, inanır. Ona görə ki, bizim uzun illər, çox uzun illər genetik kodumuzda o var. Hamımızın eşitdiyi bir həqiqəti xatırladım. Millətimizin elə bir nümayəndəsi yoxdur ki, onun evində hansısa bir parçada, pərdədə, yorğan üzündə yağ parçası gördükdə ilk düşündüyü bunun qurd yağı olması olmasın. Niyə biz qurd yağını düşünürük? Niyə qaz yağı düşünmürük? Niyə qoyunun yağını düşünmürük? Biz məhz qurd yağı düşünürük. Psixoloqlar belə araşdırma ediblər ki, qurd parçalamağa qadir olan bir heyvandır. O, yalnız parçalayır, heç vaxt əhliləşmir. Buna görə də onun bütün enerjisi piy qatında ehtiyat halında toplanır. Və həmin piy qatı istifadə olunduqda həmin insanın həyatına bir parçalama xüsusiyyəti gətirir. Yəni bunu parapsixoloqlar bu şəkildə izah edirlər. Ancaq maraqlı tərəf odur ki, hansısa bir afrikalının evindən qurd yağı çıxırsa, bu həmin afrikalıya heç vaxt təsir etmir, heç rusa da təsir etmir. Çünki onların genetik kodunda qurd yağından qorxu, onun parçalama hökmünü dərk etmək yoxdur. Eyni zamanda, Afrikada hansısa bir qəbilədə fil sümüyündən nəsə bir əşya düzəldirlər, bu, buynuz da ola bilər, bir bəzək əşyası kimi diş də ola bilər. Həmin əşyanı yaxasından asır və bu onun talismanına çevrilir, o əşyadan cadu məqsədiylə də istifadə eləyirlər. O, onların ölümünə də səbəb ola bilər, xoşbəxtliyinə də səbəb ola bilər. Amma istənilən birimizin evindən fil sümüyünün tapılması, onun yaxamızdan asılması, onun həyatımıza daxil olması bizi qətiyyən narahat edə bilməz. Ona görə ki, bizim genetik kodumuzda fil sümüyündən qorxmaq, yaxud fil sümüyünə inanmaq adlı bir məlumat yoxdur. Deməli, bizim genimizə hətta milli xüsusiyyətlərimiz də daxil olub.

Bəlkə də xoşbəxtliyimiz, bəlkə də faciəmiz ondadır ki, bizim genetik kodumuz çoxşaxəli, maraqlı, sevindirici, həm də kədərlidir. Çünki elə xüsusiyyətlər var ki, biz onunla fəxr edirik. Bu xüsusiyyətlərimizə namus deyirik, ləyaqət deyirik, vicdan deyirik, amma bəzən də bu genetik kodumuzun kənara çıxmalarına narazılıq edirik. Elə xüsusiyyətlərimiz var ki, onların varlığı belə həyatımıza mane olur. Biz bunlara milli xüsusiyyət deyə bilmərik. Çünki elə bir əlamətlər olur ki, biz öz təfəkkürümüzün varlığı ilə onu sıradan çıxardırıq. Əgər o düzgün deyilsə, əgər o lazım deyilsə öz düşüncəmizlə onu həyatımızdan silirik. Amma elə əlamətlər var ki, onu biz istəsək də silə bilmirik. O bizim genetikamızın artıq vacib hissəsində dayanır. Dediyim kimi, o sanki bizi idarə edir. Biz düşüncəli şəkildə onu qəbul etməsək də, genetik kod onu bizə qəbul etdirməyə çalışır, istəyir və o həyatımıza hakim olur.

Türkiyədə təhsil almış qohumum danışırdı ki, Türkiyə Cümhuriyyəti qurulanda belə bir tapşırıq veriblər ki, azan ana dilimizdə çəkilsin. Azançılar "Namaza gəlin, namaza" deyə nə qədər yüksək avazla minarədən səslənsələr də kimsə namaza başlaya bilmir ki, ruhumuzu tərpətmədi. Bax, dediyim genetik kod 1400 ildə bu avazla genimizə daxil olub. Azan səsiylə sanki kövrəlirik, ana laylasıyla duyğulanırıq, mənasının mərhumla heç bir əlaqəsi olmayan "Yasin" surəsiylə rahatlıq tapırıq...

Deməli, genetik kod bizim tarixi yaddaşımızla əlaqəlidir. Biz istəsək də o çərçivədən çıxa bilmirik. Biz iradəmizlə həyat tərzimizi dəyişməyə çalışırıq. Təfəkkürümüzlə, düşüncəmizlə, savadımızla özümüzü tam idarə etməyə çalışırıq. Ancaq genetik kodumuz tarixi yaddaşa arxalanır və bu zaman bəzən toqquşma da yaranır. Bu toqquşma şüuraltı şəkildə bir beyin mexanizminə daxil olur. Bəzən irad etdiklərimizi yuxumuzda görürük. Bax, həmin yuxu şüuraltı şəkildə genetik kodun törəməsidir. O, ondan qaynaqlanır. Qəbul etməsək belə mütləq həmin genetik kod yaddaşdan qaynaqlanır və bizim həyatımıza təsir edir.

Beləcə biz dünənimizin övladlarıyıq, necə ki, divarı boyayırlar, üz tökülür astar çıxır, divarı da zaman aşılayır. İnsanların genetik kodu çox uzağa getmədən biruzə verir. "Sən o sən deyilsən" deyərək mübarizə aparsaq da, nənələr deyərdi qanımızda var, a bala. "Danış səni tanıyım" deyən Sokrat da elə yəqin bunu deyirmiş.

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# SÖZ AZADLIĞI



Söz azadlığı yaşadığımız demokratik cəmiyyətin vacib təməllərindən biri hesab olunur. Azad sözünü deyə bilmək, nəsə haqqında fikir bildirmək, tənqid etmək və fərqli baxışları açıq şəkildə ifadə etmək insanın ən əsas hüquqlarından biridir. Bu, həm də cəmiyyətin inkişafı üçün şərtdir. Söz azadlığı insanı susdurmaq üçün yox, qulaq asıb öz fikrini bölüşmək üçün mövcuddur. Əsl söz azadlığı başqasının ləyaqətini tapdalamaq deyil.

Lakin yaşadığımız dövrdə bu anlayış bir az mürəkkəb bir formadadır və bir çoxu söz azadlığını fikir zorakılığı ilə səhv salır. Bəli, fikir bildirmək məsuliyyət tələb edir. Bir çoxu bilməlidir ki, azad söz etik çərçivədən çıxanda artıq azadlıq yox, zərər olur.

Sosial şəbəkələr hər kəsə söz haqqı verir. Amma bəzən bu azadlıq məsuliyyətsiz şəkildə istifadə olunur. Hər bir istifadəçi qarşısındakını rahatlıqla təhqir edə bilir, alçaldır, böhtan atır, nalayiq sözlər deyir. Niyə belə etdiyini soruşanda isə söz azadlığı deyib kənara çəkilir. Axı bu, söz azadlığı deyil. Bu, sosial şəbəkə linçi, yaxud da psixoloji zorakılıqdır.

Sosial şəbəkə linçi bir şəxsin və ya qrupun fikrinə, yaxud davranışına görə minlərlə insan tərəfindən eyni anda hücuma məruz qalmasıdır. Bu hücumlarda hədə-qorxu, şəxsi həyatın ifşası, hətta ailə üzvlərinə zərər yetirmək ismarıcları da müşayiət olunur. Linç edən kütlə özünü "ədalətin səsi" kimi təqdim edir. Ancaq bütün bunların ədalətlə heç bir əlaqəsinin olmadığı kimi, həm hüquq, həm də etika sərhədlərini aşır.

Bundan əlavə, sosial şəbəkələrin alqoritmləri emosional və qalmaqallı mövzuları qabağa gətirdiyi üçün linç mədəniyyəti sürətlə yayılır. Hər kəs başqasına istədiyini demək, öz həyatındakı probleminin aqressiyasını, çatışmayanlarını, qısası, bütün neqativlərini tanımadığı birinin üstünə tökmək haqqını özündə görür. Bir az qabağa gedən, həyatda nələrisə bacarmış, uğurlu insanlar daha çox bu zorakılığa məruz qalırlar. Çünki bunları istəyib, əldə edə bilməyən insanlarda qısqanclıq yaranır. Sosial şəbəkə linçi belə başlayır və linç başladan hər cür söz deməkdə özünü haqlı sayır.

Problemin kökündə məsuliyyətsizlik dayanır. İnsanlar real həyatda deməyə cəsarət edə bilmədikləri sözləri virtualda rahatlıqla ifadə edirlər. Bu cür insanlar el arasında "klaviatura pələngi" adlanır. "Klaviatura pələngləri" fərqli fikir bildirənləri təhqir və hədə-qorxu ilə susmağa məcbur edirlər, ya da psixoloji təzyiq göstərirlər. Beləcə, təzyiq görən tab gətirməyərək cəmiyyətdən təcrid olur.

Təəssüf ki, linç edən kütlə də, "klaviatura pələngləri" də etdiklərinin nəticəsi, törətdiyi fəsadlar barədə heç düşünmürlər. Cəmiyyətdən təcrid olunanlar, eləcə də sosial şəbəkə linçinə məruz qalanlar psixoloji sarsıntı keçirir və bir müddət sonra o şəxslər intihara meyilli olurlar. Dünya üzrə sosial şəbəkə linçi ilə əlaqələndirilən minlərlə intihar hadisəsi qeydə alınıb. Elmi araşdırmalar yeniyetmələr və gənclər arasında intihar riskinin 60 %-ə qədərini bununla əlaqələndirirlər. ABŞ-da təkcə linçlərlə bağlı 2021-2025-ci illər arasında ən azı 38 yeniyetmənin intiharı rəsmi şəkildə təsdiqlənib. Avropa və Böyük Britaniya üzrə aparılan araşdırmalar isə onu göstərir ki, intihar edən gənclərin təxminən 20-30 %-i ölümündən əvvəl ağır sosial şəbəkə linçi və psixoloji zorakılığa məruz qalıb.

Problem bütün bu rəqəmlərdən daha dərindir. Linç çox vaxt insanı səssiz və çıxışsız vəziyyətə salır. Artıq insanlar linçə məruz qalmamaq üçün düşüncələrini gizlədir, cəmiyyət isə səsizliyə doğru sürüklənir. Fikir bildirmək hüququ başqasını alçaltmaq, susdurmaq və ya psixoloji olaraq məhv etmək haqqı demək deyil. Sağlam cəmiyyət üçün azadlıqla yanaşı etik düşüncə, hüquqi çərçivə və empatiya mədəniyyəti də formalaşmalıdır. Sosial şəbəkələr mühakimə meydanı deyil, dialoq platforması olmalıdır. Əks halda, söz azadlığını qorumaq istəyərkən onu öz əllərimizlə boğan bir linç mədəniyyəti yaratmış olarıq.

Cəmiyyət olaraq biz tənqid etməyi linçlə, fikir ayrılığını düşmənçiliklə səhv saldıqca, söz azadlığının ruhunu da itiririk. Söz azadlığı nəzarətsiz bir güc deyil, vicdanla istifadə olunmalı bir haqqdır. Bu haqq cəmiyyəti irəli aparmalı, insanları qorxuya salmamalıdır. Unutmayaq ki, söz azadlığı insanları susdurmaq üçün deyil, başa düşmək üçündür. Azad söz yaşatmalıdır, məhv etməməlidir.

**Afaq Azər**

*Yazıçı*

# DÖZÜMLÜLÜYÜN, İRADƏNİN VƏ QƏLƏBƏYƏ APARAN YOLUN HEKAYƏSİ



16 yaşlı Emil İsmayılov artıq gənc yaşlarında öz əzmi, iradəsi və zəhməti ilə seçilən bir həyat yolu keçib. Onun hekayəsi təkcə idman uğurlarından ibarət deyil, həm də xarakterin formalaşması, psixoloji möhkəmlik və insanın öz üzərində apardığı davamlı işin nümunəsidir. Emil 24 aprel 2009-cu ildə Qardabanidə anadan olub və artıq beş ildir ki, boksla peşəkar səviyyədə məşğuldur. Bu idman növü zamanla onun gündəlik həyatının ayrılmaz hissəsinə, həyat fəlsəfəsinə çevrilib.

Emilin boksa gəlişi təsadüfi olmayıb. Onun bu idman növü ilə tanışlığında əmisi mühüm rol oynayıb. Məhz əmisi Emilin məşqlərə qatılmasına təşəbbüs göstərib və bu addım gənc idmançının həyatında dönüş nöqtəsi olub. İlk dövrlərdə boks Emil üçün sadəcə fiziki fəaliyyət kimi görünsə də, zaman keçdikcə bu idman onun üçün intizam, məsuliyyət və özünə nəzarət məktəbinə çevrilib. O, boksu sadəcə məşq və yarışlarla məhdudlaşdırmayıb, onu xarakterini formalaşdıran bir həyat tərzi kimi qəbul edib. Valideynlərinin xatırladığına görə, Emil uşaqlıqda sakit, təmkinli və tanımadığı mühitlərdə özünə qapanan bir uşaq olub. Məhz bu səbəbdən valideynləri onun idmanla məşğul olmasının düzgün seçim olacağını düşünüblər. Bu prosesdə əmisi yenə də əsas təşəbbüskar olub və Emil boks dərnəyinə yazılıb. Həmin gündən etibarən Emilin həyatında ciddi dəyişikliklər başlayıb. Boks tədricən onun gündəlik ritminə, psixoloji hazırlığına və ümumi dünyagörüşünə tam şəkildə inteqrasiya olunub. Emil üçün boks yalnız fiziki güc və texnika demək deyil. Onun fikrincə, bu idman dözümlülük, iradə, özünü idarə etmə və psixoloji möhkəmlik tələb edir. Emil deyir ki, boks ona intizamlı olmağı, çətinliklər qarşısında geri çəkilməməyi və məğlubiyyətləri həyatın sonu kimi deyil, dərs kimi qəbul etməyi öyrədib. “Hər məğlubiyyət yeni bir dərsdir,” – deyə o vurğulayır. Bu yanaşma onun yarışlara münasibətində də aydın şəkildə hiss olunur. İlk yarışlarında bir neçə dəfə uduzmasına baxmayaraq, Emil ruhdan düşməyib. Əksinə, hər məğlubiyyət onu daha çox çalışmağa sövq edib, hər qələbə isə motivasiyasını artırıb. Bu ardıcıl zəhmətin nəticəsi olaraq Emil mühüm uğurlar qazanıb. O, iki dəfə Gürcüstan çempionu olub, İspaniyada keçirilən beynəlxalq turnirdə birinci yerə layiq görülüb, Azərbaycanda Heydər Əliyev adına keçirilən nüfuzlu yarışda isə ikinci yeri tutub. Emil üçün rinqdə rəqibin milliyyəti və mənsubiyyəti əhəmiyyət daşımır. Onun üçün qarşısında yalnız bir idmançı dayanır və o, hər rəqibə eyni hörmət və ədalətlə yanaşır. Bu mövqe Emilin həm idman etikası, həm də sosial baxışlarının göstəricisidir. Fiziki cəhətdən güclənsə də, o, bu gücü heç vaxt aqressiya və ya mənfi məqsədlər üçün istifadə etməyib.

Emilin gündəlik məşq rejimi ciddi intizam tələb edir. Yarış olmayan günlərdə o, evdə fərdi məşqlər edir, axşam saat 17:00-da isə əsas məşqlər üçün idman zalına yollanır. Yarışlara hazırlıq dövründə isə məşqlər daha intensiv olur, gündə iki dəfə keçirilir və ümumilikdə altı saata qədər davam edir. Yüklənmə artdıqca fiziki hazırlıqla yanaşı, psixoloji hazırlığın da rolu daha da artır. Emil deyir: “Boks təkcə zərbələrdən ibarət deyil, bu, həm də zehni mübarizədir. Emosional sabitlik və psixoloji davamlılıq çox vaxt fiziki gücdən daha vacib olur”. Onun fikrincə, uzunmüddətli uğurun əsas şərti səbir, davamlı çalışma və uğursuzluqlar qarşısında dayanıb qalmamaqdır. Bu dövrdə Emil qidalanma rejiminə də xüsusi diqqət yetirir. Yaydan etibarən pəhriz saxlayır və özü etiraf edir ki, bu, bəzən fiziki məşqlərdən belə daha çətin sınaqdır. İdman Emilin sosial həyatına da müsbət təsir göstərib. Asudə vaxtlarında dostları ilə ünsiyyət qurur, bəzən onları da məşqlərə dəvət edir və birlikdə idman zalına gedirlər. Dostlarının sözlərinə görə, Emil boksdan əvvəl daha qapalı və sakit biri olsa da, idman onun sosiallaşmasına, özünə inamının artmasına və daha açıqfikirli olmasına səbəb olub. Onlar Emilin güclü yaddaşını və musiqiyə olan marağını da xüsusi qeyd edirlər. Emil sosial şəbəkələrdə aktivdir, yarışlardan və əldə etdiyi nailiyyətlərdən foto və videolar paylaşır. Onun sözlərinə görə, aldığı müsbət rəylər və dəstək mesajları motivasiyasını daha da gücləndirir. Lakin onun üçün ən böyük motivasiya mənbəyi ailəsidir.

Ailə dəstəyi Emilin həyatında xüsusi və əvəzsiz yer tutur. Anası bildirir ki, həyəcan səbəbindən yarışlar zamanı oğluna tam baxa bilmir və yalnız son anları izləyir. Emil ölkə xaricində yarışlara qatıldıqda isə ana onun qayıdışına qədər oruc tutur. Atası isə daha sakit, lakin davamlı dəstəyi ilə seçilir, yarışlardan əvvəl oğluna zəng edir, ona güvəndiyini bildirir və motivasiya verir. Emilin sözlərinə görə, ailəsinin onu televizorda izlədiyini düşündüyü anlarda rinqdə məsuliyyət hissi daha da artır, daha böyük əzmlə mübarizə aparır və həmçinin bu, onun daha ehtiyatlı olmasına səbəb olur ki, zədə almasın. Bəzən maliyyə çətinlikləri olsa da ailə Emilin idmandan uzaqlaşmaması üçün bütün imkanlarını səfərbər edib. Sonrakı mərhələdə Gürcüstan Boks Federasiyasının maliyyə dəstəyi də onun inkişafında mühüm rol oynayıb. Eyni zamanda, ailə Emilin ali təhsil almasını vacib sayır və gələcək peşə seçimində ona tam sərbəstlik verir.

Müəllimlərin müşahidələrinə görə, Emil intizamı, məsuliyyəti və hörmətli davranışı ilə seçilib. Dərslərə ciddi yanaşması və mövzuları dərindən qavraması onun intellektual potensialını göstərir. Lakin idmanla bağlı sıx qrafik bəzən dərslərə daha çox vaxt ayırmağı çətinləşdirdiyinə görə dərslərinə yetərli vaxt ayıra bilmir. Amma müəllimlər və sinif yoldaşları onun uğurlarını qürurla qarşılayır və




Emili gənclər üçün nümunə kimi qiymətləndirirlər.

Emil beynəlxalq arenada da özünü doğruldub. O, azərbaycanlı, gürcü, erməni və digər millətlərdən olan idmançılarla rinqə çıxır və hər zaman ədalətli mübarizə aparır. Onun sözlərinə görə, rinqdə milliyyətin heç bir əhəmiyyəti yoxdur. Gürcüstan milli boks komandasında müxtəlif millətlərdən olan idmançılarla birgə məşq etməsi Emilin dil biliklərini də inkişaf etdirib. O, həm gürcü, həm də rus dillərini öyrənib. Gürcü dilini mənimsəməsində dostlarının gündəlik ünsiyyəti və dəstəyi mühüm rol oynayıb. Emilin ən yaxın dostu isə Şalva Beridzedir.

Emilin sevdiyi boksçular ukraynalı Vasili Lomaçenko, Oleksandr Usik, eləcə də Artur Beterbiyev və Aleksandr Povetkindir. Onlar Emil üçün texniki ustalıq, taktiki düşüncə və peşəkarlıq baxımından ilham mənbəyidir. Emilin əsas hədəfi gələcəkdə əvvəl Avropa, daha sonra isə dünya çempionu olmaqdır və o, bu məqsədə çatmaq üçün hər gün əzmlə çalışır. Emil İsmayılovun hekayəsi onu təkcə perspektivli idmançı kimi deyil, həm də məqsədyönlü, sosial və intellektual baxımdan yetkin bir gənc kimi təqdim edir. Onun həyat yolu iradə, intizam, ailə dəstəyi, dostluq münasibətləri, müəllimlərin diqqəti və şəxsi motivasiyanın vəhdətindən formalaşıb. Emil üçün boks sadəcə idman növü deyil, bu, özünü tanıma, inkişaf və gələcəyini qurma yoludur. Bu portret bir daha göstərir ki, zəhmət, düzgün istiqamət və səmimi dəstək bir araya gəldikdə böyük nəticələr qaçılmaz olur və Emil bunun canlı nümunəsidir.

**Çiyələ Osmanova**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi*

# BELƏ BELƏ İŞLƏR...



Sovetləşmədən öncə, 1880-1921-ci illər Tiflisdə yüzdən çox satirik-yumoristik jurnal və almanax nəşr olunmuşdu. Bu nəşrlərdə bizim üçün maraqlı olan yazıları toplayaraq "Yeni yol" qəzetinin oxucularına təqdim etmək istəyirəm. 1880-1921-ci illərdə Tiflisdə rus dilində nəşr olunan "Falanqa" satirik jurnalında bir neçə lətifə verilmişdi.

***Şərq lətifələri***

İki nəfər dar ağacının yanından keçir. Biri o birisinə deyir: "Layiqli insanları dara assalar nə olardı?"

O biri cavab verir: "Onda güman ki, bu dünyada mən tək qalardım".

***

Meşədə yaralanmış bir qulduru tutub dar ağacına aparırlar. Bir qoca onu sakitləşdirməyə çalışaraq deyir:

– Oğlum, biz hamımız öləcəyik.

O cavab verir:

– Bu belədir, ata, lakin özünüzün asılacağınızı yaddanmı çıxartdınız?!

* * *

Nökər fənərlə xanımını yola salırdı. Qadın tez-tez palçığa batırdı ki, bu da onun nökərini o qədər də narahat etmirdi. Xanım deyir:

– Buradan o yana gedə bilmərəm, bütün palçığa batırıq.

– Qorxmayın, xanım, mən çəkmə geyinmişəm, – deyə nökər cavab verir.

* * *

Baş keşiş dua edərkən xəsis kilsəyə daxil olur. Xəsis deyir: "Bu da mərhəmət umanda bəs mən nə edim. Mən də dilənçiliyə başlayacağam. Allaha da xoş gedər".

* * *

Həkim: "Di, deyin görüm, haranız ağrıyır?"

Sövdəgər: "Aha. Dəlidirmi, nədir bu. Pulumu sənə ona görə verirəm ki, özün biləsən!"

* * *

Xanım: "Bu salaxana küçədə mənə imkan vermir, mənə göz-qaş edir".

Kinto: "Aha. Bu gözlər mənimdir. İstəsəm yumaram, istəsəm açaram".

**1906-cı ildə rus dilində nəşr olunan "Xurma" ədəbi-bədii, satirik jurnalında dərc olunanlar:**

*Teleqram*

Konstantinopol sultanının səhhətinin durumu sual altındadır. Camaat həyəcanlanır... Aman-aman birdən sağ qalar. Cenevrə mehmanxanaları varlı rus mühacirləri ilə doludur. Peterburqda birdən əcəli ilə ölümü ləğv edən qanun layihəsi işlənib hazırlanır.

* * *

*Əmr*

Otun böyüməsi, yarpaqların xışıltısı, güllərin ətir saçması qadağan olunur.

* * *

*Məhkəmədə*

– Maraqlıdır, bu centlmen nə ilə yaşayır?

– Oho, bu yaxşı yerdə işləyir.

– Harada?

– Məhkəmədə.

– Nə edir?

– Xroniki şahidlik.

* * *

*Coğrafiya dərsi*

– Tobol quberniyası haradadır?

– Qərbi Sibirdə.

– İnsan ora necə düşə bilər?

– Tətil etsə.

* * *

Müəllim: "Yer üzünün ən çox məskunlaşmış hissəsi haradır?

Şagird: "Həbsxana".

**1901-1908-ci illərdə gürcü dilində nəşr olunan "Nişaduri" satirik-yumoristik jurnalında dərc olunanlar:**

*Hazırcavablıq*

İmperator II Nikolay Qafqazdan narazı idi və deyirdi ki, Qafqaz Rusiya üçün sərfəli deyil. Buna görə də Qafqazın Rusiyaya səmərə verməsi üçün nəsə vəsaitin toplanılması təklifi ilə dövlət dumasına müraciət edir.

İmperatorun əhval-ruhiyyəsi yaxşı deyildi və dumanın heç bir üzvü səsini çıxarmağa ərk edə bilmirdi. Nəhayət, bir nəfər ixtiyar, hörmətli general ayağa qalxaraq bəyan etdi:

– Böyük hökmdar, mənim fikrimcə, yaxşı olardı ki, Qafqazı icarə ilə daha tərbiyəli dövlətə verək... Yüz illiyinə. Məsələn, 33 il Almaniyaya – mədəniyyəti gətirmək üçün; bir o qədər vaxta da İngiltərəyə – ticarəti gətirmək üçün; 33 illiyinə İtaliyaya – musiqi və incəsənətin yayılması üçün. Onda Qafqaz daha səmərəli əyalətə çevrilə bilər.

Bu fikir çarın çox xoşuna gəldi və dedi:

– Əla, çox əla! Sən deyirsən 33 illiyinə Almaniyaya, 33 illiyinə İngiltərəyə, 33 illiyinə İtaliyaya verək. Bu, cəmisi 99 il edir.

– Bəli.

– Bayaq 100 il dedik. Bəs o son 1 ili kimə verək?

– Son 1 ili siz əlahəzrətlərinə, Qafqazda canişin təyin edin. Belə ki, o da 1 il ərzində 99 ildə görülən bütün işləri yox edəcəkdir, – deyə general cürətlə cavab verir.

* * *

*Divanbəyinin ədaləti tarixindən*

Köhnə vaxtların divanbəyiləri camaat arasında pis ad çıxarmışdılar. Guya ki, özbaşına, haqsız və qəddar olmalı idilər. Lakin bütün bunlar şaiyə və böhtanlar üzərində qurulmuş ittihamlardır. Buna görə də divanbəyilərin gələcək tarixinə bir-iki "spravka" ötürüm.

Divanbəyinin yanına şikayətçi gəlir. Bir badya bal bərərək öz şikayətini ərz edir.

– Yaxşı, get, o adamı çağırtdıraram və sənə vurulan ziyanı ona ödətdirərəm.

Çağırılan həmin adam gəlir. O, divanbəyiyə bir donuz gətirir və özünü doğrultmağa başayır.

– Yaxşı, get, şikayət edən yalançı imiş, – deyə divanbəyi onun sözünü kəsir.

Bir az keçəndən sonra yenə şikayətçi divanbəyiyə yaxınlaşır. Öz işini, verdiyi balı və onun verdiyi vədi ona xatırladır.

– Bəli, haqlısan, lakin, nə edim, atası rəhmətlik, sənin balını onun donuzu yedi, – divanbəyi dəbbələyərək deyir.

Riş-Baba (A.Saracişvili)

**1911-ci ildə gürcü dilində "Vay-Vay" əyləncəli almanaxından:**

*Kintonun hazırcavablığı*

Kinto bulka satanın yanına gedir və deyir ki, mənə "sdobnı" ver ("sdobnı" – yağlı, şirnili – Red.). Görür ki, köhnədir. Onu geri qaytararaq deyir:

– Götür, mənim qardaşım, "sdobnı"nın əvəzinə bulka gətir.

Ona bulkanı gətirir. O, yeyəndən sonra qalxır, pul verməyərək eləcə də bayıra çıxır.

– Ey, sən bulkanı yedin, pulunu vermirsən?

– Yuxuda deyilsən ki, kor idin, görə bilmədin? Bulka verdin, "sdobni" verdim.

– Yaxşı onda "sdobnı"nın pulu?

– "Sdobnı"nı ki, geri qaytardım.

**1913-cü ildə gürcü dilində nəşr olunan "Xumara" ədəbi-bədii almanaxından:**

Həzrət Süleymandan soruşurlar, dünyada qadın çoxdur, yoxsa kişi?

– Qadın, – deyə Həzrət Süleyman cavab verir.

– Nədən bilirsiniz?

– Öz ağlını qadının ağlına verən kişi də qadınlara aiddir və buna görə də qadınlar olduqca çoxdur.



* * *

İranlı gürcüdən soruşur:

– Gürcü, əsnəyəndə niyə xaç çəkdin?

– Qorxuram ağzıma şeytan girə.

– Bəs mən xaç çəkmirəm, ağzıma şeytan girir?

– Öz evinə girməyə və çıxmağa kim mane ola bilər, – deyə gürcü cavab verir.

* * *

– De görüm, mənim əziz İvanem, qəssab ilə həkim arasında nə əlaqə var? – deyə birisi öz tanışından soruşur.

– Ay qurumsaq, bunu bilməyə nə var ki, qəssab əvvəlcə malı kəsir, sonra soyur. Həkim isə öz xəstəsini əvvəlcə soyur, sonra öldürür.

* * *

Bəzi ağzıgöyçəklər deyirlər ki, bir dəfə Xatisov (A.İ.Xatisov sovetləşmədən öncə Tiflis şəhərinin hakimi, daşnaklar və katetlət partiyasının üzvü, sonralar daşnak Ermənistanının rəhbərlərindən biri olub – M.M.) xəstə imiş. Dostları ona baş çəkirlər, ürək-dirək, təsəlli verəndən sonra Xatisov, sən demə, deyibmiş ki: "Mən ölümdən qorxmuram, həm də təəccüblənmirəm. Bircə ona təəssüflənirəm və narahat oluram ki, öz ehsanımda iştirak edə bilməyəcəyəm. Başqaları söz deyəcək, mən isə deyə bilməyəcəyəm".

**1914-cü ildə gürcü dilində "Laxti" həftəlik ədəbi-karikatura jurnalından:**

Qafqazda bir tatar (azərbaycanlı – M.M.) arvad alır. Öz nişanlısının üzünü görmür. Elə ki, tək qalırlar, ər arvadının çadrasını götürür və görür ki, onun çox eybəcər sifəti var. Gənc arvad utana-utana öz ərindən soruşur:

– Sənin qohumların arasında kimə üzüaçıq görünüm?

– Hamıya, məndən başqa, – deyə əri cavab verir.

*Toplayan və gürcü dilindən tərcümə edən:*

**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2026-Cİ İL
№ 02 (242)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHANLAR ÜZRƏ MİLLİ MƏRKƏZƏ YENİ DİREKTOR TƏYİN EDİLİB



Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyində kadr dəyişikliyi həyata keçirilib. Tamar Memanişvili nazirliyə tabe olan Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə yeni rəhbər təyin olunub.

Təhsil, Elm və Gənclər Nazirliyinin məlumatına görə, mərkəzin yeni rəhbərini əməkdaşlara Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze və onun birinci müavini Levan Qirsiaşvili təqdim edib.

G.Mikanadze Tamar Memanişvilini vəzifəyə təyin olunması münasibətilə təbrik edib və ona uğurlar arzu edib.

Tamar Memanişvili 1981-ci ilin 8 noyabrında anadan olub. 1999-2004-cü illərdə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb, magistraturaya bərabər akademik dərəcəsi var. 2024-cü ildən İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin doktorantıdır.

***Digər təhsil fəaliyyətləri:***

2023 – tədris kursu – İnsan resurslarının idarə edilməsi, təşkilati inkişaf, strategiyanın işlənməsi və həyata keçirilməsi (Berlin, Hert məktəbi);

2023 – tədris kursu – Strategiyanın hazırlanması və yerinə yetirilməsi (Berlin, Hert məktəbi);

2023 – tədris kursu – Strateji planlaşdırma və yerinə yetirmənin qiymətləndirilməsi;

2022 – tədris kursu – Liderlik və idarəetmə (Berlin, Hert məktəbi);

2019-2021 – pedaqoji fəaliyyət – “Mermisi” İctimai Kolleci (Modullar – normativ aktlardan istifadə; vətəndaş təhsili; ofis görüşləri və tədbirlərin planlaşdırılması);

2018 – tədris kursu – Polis qurumlarında insan resurslarının idarəedilməsi (Düsseldorf);

2017 – təlim – İnsan resurslarının idarə edilməsi və inkişaf siyasəti;

2017 – təlim – Keyfiyyətin idarə sisteminin tətbiq edilməsi;

2016 – tədris kursu – Strateji idarəetmə, insan resurslarının idarə edilməsi və təlim (Düsseldorf).

***İş təcrübəsi:***

16.01.2026 tarixindən – Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru;

07.07.2025-15.01.2026 – Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin departament rəhbəri;

03.09.2018-07.07.2025 – Gürcüstan Parlamentinin İnsan Resursları və İnstitusional İnkişaf Departamentinin Təhlil və İnstitusional İnkişaf Şöbəsinin müdiri;

01.10.2016-03.09.2018 – Gürcüstan Daxili İşlər Nazirliyinin Akademiyasının İnsan Resurslarının İdarə Edilməsi Şöbəsinin müdiri;

01.01.2009-01.10.2016 – Təhsil və Elmi İnfrastruktur İnkişafı Agentliyinin Hüquq Xidmətinin vəkili;

01.03.2014-01.11.2016 – “Mermisi” Dövlət Kollecinin vəkili;

01.10.2012-01.05.2013 – “Qldani Peşə Təlimi Mərkəzi” Dövlət Kollecinin hüquqşünası;

01.09.2012-01.12.2012 – “Qantiadi” Peşə Kollecinin alqı-satqı meneceri, hüquqşünası;

01.03.2011-01.07.2012 – “Professional” Peşə Kollecinin hüquqşünası;

01.06.2009-01.09.2009 – “Daimi fəaliyyət göstərən Arbitraj” MMC-nin dəvət olunmuş arbitri;

01.02.2008-31.12.2008 – “İrmis Naxtomi” Fondunun hüquqşünası;

01.11.2006-01.03. 2008 – “Mülki işlər üzrə daimi fəaliyyət göstərən arbitraj” MMC-nin iclas katibi, arbitri;

***Xatırladaq ki, 2024-cü ildən Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru vəzifəsini Nino Tsereteli tutub.***

*Mənbə: edu.aris.ge*

## TBİLİSİ DÖVLƏT UNİVERSİTETİ VƏ GÜRCÜSTAN TEXNİKİ UNİVERSİTETİ BİRLƏŞDİRİLİR



İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti və Gürcüstan Texniki Universiteti birləşdiriləcək. Bu barədə Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze yanvarın 29-da açıqlama verib.

*“Təhsil sistemində mühüm islahatın başlanması dərin təhlilə, beynəlxalq təcrübəyə və ölkənin inkişafının uzunmüddətli maraqlarına əsaslanır. Son dövrdə dövlət universitetlərinin akademik proqramlarının, elmi-tədqiqat istiqamətlərinin və infrastrukturunun müqayisəli təhlili aparılıb. Bu prosesin və rektorlarla ilkin məsləhətləşmələrin nəticəsində Tbilisi Dövlət Universiteti ilə Gürcüstan Texniki Universitetinin birləşdirilməsi barədə qərar qəbul etdik. Bu addım İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin regionda akademik və elmi inkişafın aparıcı mərkəzinə çevrilməsinə zəmin yaradacaq və onun beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq”,* – deyə təhsil naziri bildirib.

## MƏKTƏBDƏ MOBİL TELEFONLAR MÜƏLLİMLƏR ÜÇÜN DƏ QADAĞAN OLUNUR




Gürcüstanda məktəblərdə təkcə şagirdlərə deyil, müəllimlərə də mobil telefonlardan istifadə etmək qadağan olunacaq. Dövlət məktəblərində müəllimlər dərs zamanı mobil telefonlardan istifadə edə bilməyəcəklər. Bu barədə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, bu qadağa 2026-2027-ci tədris ilində qüvvəyə minəcək ümumi təhsil islahatlarında nəzərdə tutulub.

Məlumata görə, müəllimlər dərs zamanı mobil telefonların istifadəsini məhdudlaşdırmaqla şagirdlərinə şəxsi nümunə göstərməlidirlər. Lakin bu, müəllimlər üçün qadağan xarakteri daşımır. Bu, sadəcə şagirdlər üçün şəxsi nümunədir.

## ÖTƏN İL GÜRCÜSTANIN TURİZM GƏLİRİ REKORD HƏDDƏ OLUB

2025-ci ildə Gürcüstanın turizm gəlirləri illik 6 faiz artaraq rekord həddə – 4 milyard 690,2 milyon dollara çatıb.

Bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi məlumat yayıb.

Məlumata görə, 2025-ci il turizm sənayesi üçün gəlir baxımından rekord il olub. Belə ki, ötən ilin dördüncü rübündə səyahət gəlirləri 9,2 faiz artaraq 1 milyard 52,4 milyon dollar olub.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.